# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

# Ə M R

№ F-48

Bakı şəhəri "30" aprel 2022 il

**"Enerji Məsələlərini Tənzimləmə Agentliyinin daxili sanitariya-epidemioloji Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Energetika Nazirliyinin 2020-ci il 16 iyul tarixli F-82 nömrəli Əmrində dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli və "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" 2021-ci il 26 may tarixli 151 nömrəli qərarlarında dəyişiklik edilməsi, "Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" 2020-ci il 6 iyul tarixli 237 nömrəli, "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında mehmanxanaların fəaliyyətinin təşkili Qaydaları"nın təsdiq edilməsi barədə" 2020-ci il 8 avqust tarixli 287 nömrəli qərarlarının ləğv edilməsi və bununla bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" 2022-ci il 5 mart tarixli 71 nömrəli və "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı əlavə tədbirlər barədə" 2022-ci il 22 aprel tarixli 171 nömrəli Qərarlarının icrasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndinin və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"nin 4.5.8-ci yarımbəndinin tələblərini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikası Energetika Nazirliyinin 2020-ci il 16 iyul tarixli F-82 nömrəli Əmri ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin daxili sanitariya-epidemioloji Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddə:

1.1.1. "qərarlarına" sözündən sonra "uyğun olaraq" sözləri əlavə edilsin;

1.1.2. "Azərbaycan Respublikası Baş Nazirinin 2020-ci il 4 iyun tarixli 11/637 nömrəli məktubu ilə verilmiş göstərişin və" sözləri çıxarılsın;

1.1.3. “icrası qaydasında” sözləri “nəzərə alınması məqsədilə” sözləri ilə əvəz edilsin.

1.2. 1.2.8-ci yarımbənddə “karantin rejimi” sözləri “tələbləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş xüsusi karantin rejimi (bundan sonra – **xüsusi karantin rejimi**)” sözləri ilə əvəz edilsin.

1.3. 1.2.12-ci yarımbənddə “Agentliyin İdarə Heyətinin sədri” sözləri “işəgötürən” sözü ilə əvəz edilsin.

1.4. 2.1-ci bənddə “Koronavirus (COVID-19)” infeksiyasının, habelə koronavirus ailəsinə aid digər infeksiyaların” sözləri “İnfeksiyanın” sözü ilə əvəz edilsin.

1.5. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.2. İşəgötürənin əmri ilə bu Qaydaların 2.1-ci bəndində göstərilənlərdən əlavə profilaktik tədbirlər tətbiq oluna bilər.”;

1.6. 3.1-ci bəndinə “qaydasına” sözündən sonra “(tətbiq olunduqda)” sözləri əlavə edilsin;

1.7. 3.2-ci bəndə “İşçilər” sözü “Məhdudlaşdırıcı rejimlə tələb edildikdə, habelə həmin rejimlə tələb olunmadan işəgötürənin əmri ilə işçilər” sözləri ilə əvəz edilsin;

1.8. 3.3-cü bəndə “etməsi” sözündən sonra “birbaşa rəhbərinin razılığı ilə” sözləri əlavə edilsin;

1.9. 3-1.4-ci və 3-1.5-ci bəndlərdə “Karantin” sözü “Xüsusi karantin” sözləri ilə əvəz edilsin;

1.10. 4.1-ci bənddə “edilməlidir” sözü “edilməsi tövsiyə olunur” sözləri ilə əvəz edilsin;

1.11. 4.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.2. İşçilərin inzibati binaya daxil olduqları andan xidməti otağa çatanadək, həmçinin xidməti otağını tərk etdiyi andan etibarən qoruyucu vasitələrdən istifadə etməsi tövsiyə olunur.”;

1.12. 4.3-cü bənddən “mütləq qaydada qoruyucu vasitələrdən istifadə etməli,” sözləri çıxarılsın və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Bu zaman işçilərə qoruyucu vasitələrdən istifadə etmək tövsiyə olunur.”;

1.13. 4.4-cü bəndin əvvəlinə “Məhdudlaşdırıcı rejimlə tələb edildikdə,” sözləri əlavə edilsin;

1.14. 4.6-cı və 4.7-ci bəndlərdə “Xüsusi karantin rejimi ərzində” sözləri “Məhdudlaşdırıcı rejimlə tələb olunduqda,” sözləri ilə əvəz edilsin;

1.15. 4-1-ci hissənin adında “Karantin dövründə” sözləri “Sanitariya-epidemioloji salamatlığın təmin edilməsi məqsədilə” sözləri ilə əvəz edilsin;

1.16. 4-1.1-ci bənddə “Karantin rejiminin tələblərinə uyğun olaraq” sözləri “Məhdudlaşdırıcı rejimlə tələb edildikdə,” sözləri ilə əvəz edilsin;

1.17. 5.3-cü bənddə “mütləq istifadə edilməsi qaydası” sözləri “istifadənin tövsiyə olunduğu” sözləri ilə əvəz edilsin;

1.18. 5.5-ci bənddə “İşəgötürən tərəfindən” sözləri “Məhdudlaşdırıcı rejimlə tələb olunduqda” sözləri ilə əvəz edilsin;

1.19. 6.1-ci bənddə “Agentlik tərəfindən vətəndaş müraciətlərinin fasiləsiz” sözləri “Məhdudlaşdırıcı rejimlə qəbul otaqlarında görüşə imkan verilmədikdə vətəndaşların qrup və fərdi surətdə” sözləri ilə əvəz edilsin;

1.20. 6.2-ci bənddə “AİH sədri ilə” sözləri “işəgötürənlə” sözü ilə əvəz edilsin;

1.21. 9.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“9.1. Agentliyin əməkdaşlarına öz iş masalarından kənarda xidmət göstərdikdə qoruyucu vasitə və antiseptiklərdən istifadə etmək tövsiyə olunur.”;

1.22. 11-1.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“11-1.1.1. Məhdudlaşdırıcı rejim şəraitində işçi məzuniyyətə çıxdıqda, həmin işçiyə məzuniyyətdə olduğu dövrdə bu məhdudlaşdırıcı rejimin tələblərinə ciddi əməl edilməsi;”;

1.23. 11-1.1.2-ci yarımbənddə “Karantin” sözü “Xüsusi karantin” sözləri ilə əvəz edilsin.

2. Ümumi şöbə bu Əmrin surətinin Nazirliyin Aparatının aidiyyəti struktur bölmələrinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.

3. Bu Əmrin icrasına nəzarət Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İdarə Heyətinin sədrinə həvalə edilsin.

**Nazir** **Pərviz Şahbazov**